Məlum olduğu kimi, Azərbaycan ədəbi tənqidi haqqında bir sıra dəyərli əsərlər yazılsa da, bütövlükdə onun tarixi təkamülü, inkişaf mərhələləri, metodoloji istiqamətləri ciddi, sistemli şəkildə öyrənilməmişdir. Bu isə təbii olaraq milli ədəbi-estetik fikir tarixinin real, gerçək mənzərəsinin yaradılmasına imkan verməmişdir. Bu mənada Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlının yazmış olduğu "Azərbaycan ədəbi tənqidi" (təkmilləşdirilmiş III nəşr)




# AZƏRBAYCAN ƏDƏBİ TƏNQİD TARİXİ İLƏ BAĞLI YENİ ARAŞDIRMA

kitabı bu sahədə mövcud boşluğun aradan qaldırılması baxımından diqqəti çəkməkdədir. Bu günlərdə "Nurlar" nəşriyyatının yayınlamış olduğu kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğludur.

Kitabda Azərbaycan ədəbi tənqidinin tarixi təkamülü və inkişaf yolu araşdırılmışdır. Burada həmçinin ədəbi tənqid tarixinin ümumi nəzəri məsələləri yığcam şəkildə nəzərdən keçirilmiş, onun yaradıcılıq metodları, istiqamətləri və janr-ları, ədəbi prosesdə rolu səciyyələndirilmişdir. Müəllif ədəbi tənqidlə ədəbiyyatşünaslığın fərqi və qarşılıqlı əlaqələrinin səciyyələndirilməsinə xüsusi diqqət yetirmiş, professional tənqidlə yanaşı yazıçı tənqidi və oxucu rəyi barədə elmi-nəzəri mülahizələrini əks etdirmişdir.

Tədqiqatın maraq doğuran və onu əvvəlki araşdırmalardan xeyli dərəcədə fərqləndirən cəhətlərindən biri Azərbaycanın Güneyində və mühacirətdə yaranmış ədəbi-nəzəri irsin təhlil obyektinə çevrilməsidir. Məhz bu cür yanaşma müəllifə Azərbaycan ədəbi tənqidinin əhatə dairəsini real cizgilərlə canlandırmağa imkan vermişdir.

Vaqif Sultanlının uzun illərin yaradıcılıq axtarışlarının bəhrəsi kimi ərsəyə gələn, tədris vəsaiti olmaqla yanaşı, ciddi elmi-nəzəri üslubda işlənilən "Azərbaycan ədəbi tənqidi" tədqiqatının ədəbi-nəzəri fikrin diqqətini çəkəcəyi şübhə doğurmur.

**Ceyhun ZALLI**